

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 127 (24.264)

*19 iyul 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## Azərbaycan Prezidenti İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşü olub

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.

Əvvəlcə birgə foto çəkdirildi.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlandı. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artması işinə töhfə verəcəyi bildirildi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Görüşdə dövlətimizin başçısı İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində bu ilin martında Azərbaycana səfəri və ikitərəfli əlaqələrimizin inkişafına dair onunla apardığı müzakirələri, həmçinin İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin ölkəmizə səfəri zamanı keçirdiyi görüşü və əlaqələrimizin inkişafı ilə əlaqədar müzakirələri məmnunluqla xatırladı.

Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparıldı.

**AZƏRTAC**

## “Qala Sığorta” Naxçıvanda fəaliyyətə başlayıb



Ümummilli Lider Heydər Əliyevin 100, “Qala Sığorta” Şirkətinin yaranmasının 25 illiyi münasibətilə şirkətin Naxçıvan nümayəndəliyinin açılışı olub.

Tədbir iştirakçıları əvvəlcə dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Açılış tədbirində “Qala Sığorta” Şirkəti idarə heyətinin sədri Fuad Allahverdiyev sığorta bazarında geniş xidmət şəbəkəsinə malik olan şirkətin fəaliyyəti barədə məlumat verib. Bildirib ki, “Qala Sığorta” Şirkəti Naxçıvanda 30-dan çox könüllü və 4 icbari sığorta növləri üzrə xidmətlərini təklif edir. Hazırda burada 10 əməkdaş çalışır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, 11 vacib prioritet istiqamət üzrə müəyyənləşən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda qeyd olunub ki, əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığın inkişafı məqsədilə müvafiq tədbirlər görüləcək, sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcəkdir. Bütün bunlar əhalinin işlə təminatına, ciddi layihələrin reallaşmasına imkan verəcək, dövlət bu sahəyə daim dəstək göstərəcək.



Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev və “Qala Sığorta” Şirkəti idarə heyətinin sədr müavini Taleh Yunusarov həyat tərzinin yaxşılaşması və sahibkarlıq subyektlərinin inkişafında sığortanın əhəmiyyətinə toxunub, yeni nümayəndəliyin açılmasının sağlam rəqabətin formalaşmasına şərait yaradacağını bildiriblər.

Sonra “Qala Sığorta” Şirkətinin Naxçıvan nümayəndəliyinin açılışı olub.

**Xəbərlər şöbəsi**

## “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü” mövzusunda konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsində “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü” mövzusunda elmi konfrans keçirilib.*

“Heydər Əliyev İli” çərçivəsində keçirilən konfransda Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev giriş sözü söyləyib. Müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasından bəhs edən akademik bildirib ki, ərazi bütövlüyü məsələsi ölkəmizin ən ağrılı və diqqət tələb edən problemlərindən biridir. Ulu Öndərin tariximizdəki mühüm rolundan söz açan bölmə sədri, onun ərazi bütövlüyümüzün qorunması istiqamətində yürütdüyü məqsədyönlü siyasətdən danışıb. Qeyd edib ki, ömrünü xalqının gələcəyinə, Azərbaycanın müstəqilliyinə həsr edən bacarıqlı lider ərazi bütövlüyü məsələsini daim diqqətdə saxlamış, əzm və qətiyyətlə mübarizə aparmışdır.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov “Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə (1969-1982-ci illər) Azərbaycanın sosial-iqtisadi inkişafı”, elmi işçi Nilufər Ağayeva “Naxçıvanın ərazi bütövlüyünün qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu”, institutun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev “Müstəqillik illərində Heydər Əliyevin xarici siyasəti və ölkəmizin ərazi bütövlüyü”, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov “Görkəmli dövlət xadimi Heydər Əliyevin regional təşkilatlarda Azərbaycanın ərazi bütövlüyü uğrunda fəaliyyəti” mövzularında məruzə ediblər.

Məruzələrdə XIX əsrdə tarixi ərazilərimizin Rusiya və İran arasında bölüşdürülməsindən, xüsusilə ötən əsrin 20-ci illərində əzəli Azərbaycan torpaqlarında yaradılan Ararat Respublikası və sonrakı dövrdə xalqın iradəsinə zidd olaraq ermənilərə pay verilən torpaqlarımız barədə məlumat verilib.

Qeyd olunub ki, uzaqgörən lider Heydər Əliyev məsul vəzifələrdə çalışarkən, eləcə də ölkəmizə rəhbərliyinin hər iki dövründə ərazi bütövlüyü məsələsinə xüsusi həssaslıqla yanaşmış, bu məsələni daim diqqətdə saxlamış, hələ Sovet hakimiyyəti dönəmində ermənilərin əsassız ərazi iddialarının qarşısını qətiyyətlə almışdır.

Ulu Öndərin ölkəyə rəhbərliyinin birinci dövründə sosial-iqtisadi sahədə qeydə alınan inkişafın əvvəlki dövrlə müqayisəli təhlil edildiyi məruzələrdə diqqətə çatdırılıb ki, bu uğurlu fəaliyyət Ümummilli Liderin Azərbaycana rəhbərliyinin müstəqillik dövründə də davam etmişdir.

Məruzələrdə, həmçinin Ümummilli Liderin ordu quruculuğu sahəsində apardığı islahatlardan, yüksək peşəkarlığa malik hərbçilərin hazırlanması məqsədilə gördüyü işlərdən və həmin tədbirlərin bugünkü nəticələrindən bəhs olunub. Vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyevin qətiyyətli mövqeyi ərazi bütövlüyümüzün qorunması və bərpası ilə bağlı dünya liderləri ilə danışıqlarında, tribunalarda etdiyi çıxışlarında, müxtəlif beynəlxalq təşkilatların gündəliyində əksini tapmışdır. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin dünyaya çatdırdığı Azərbaycan reallıqları, tarixi həqiqətlər bu gün öz bəhrəsini verməkdədir.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

## Azadkənddə aparılan quruculuq işləri bitmək üzrədir



Bu gün dövlət qayğısı hesabına muxtar respublikanın paytaxtı ilə yanaşı, bütün rayonları özünün yeni inkişaf dövrünü yaşayır. Ucqar kəndlərdə müasir yol infrastrukturunun qurulması, məktəb tikintisi, kənd və xidmət mərkəzlərinin də yaradılması əhalinin rifah halının yüksəlməsində, həyat səviyyəsinin yaxşılaşmasında mühüm rol oynayır.

Tikinti-quruculuq tədbirlərinin intensiv aparıldığı rayonlar sırasında Ordubad da öz yerini alıb. Rayonun abadlaşan yaşayış məntəqələrindən biri də Azadkənddir. Hazırda kənddə insanların rahatlığına xidmət edəcək sosial obyektlərdə quruculuq tədbirləri davam etdirilir.



Bir neçə vaxtdır ki, kənddə yeni məktəb, kənd və xidmət mərkəzləri və həkim ambulatoriyası üçün yeni binalar inşa edilir. Quruculuq tədbirlərini “Cahan İnşaat” həyata keçirir. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 270 şagird yerlik məktəb binasında tikinti işləri artıq başa çatıb, rabitə və elektrik xətləri çəkilib. Hazırda binadaxili ağartma işləri aparılır. Müasir standartlara cavab verəcək məktəb binasında kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər otağı, kitabxana, idman zalı və digər otaqlar nəzərdə tutulub. İki mərtəbədən ibarət kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəliklə yanaşı, digər dövlət qurumları üçün otaqlar da yerləşəcək. Bu obyektdədə hörgü işləri tamamlanıb, hazırda digər tikinti tədbirləri həyata keçirilir. Tibbi xidmətin keyfiyyətini daha da artıracaq həkim ambulatoriyasında fasad və binadaxili suvaq işləri aparılıb. Bir mərtəbədən ibarət xidmət mərkəzində ərzaq mağazası və digər sahələr üzrə xidmətlər göstəriləcək, sakinlər işlə təmin olunacaqlar.

Görülən bütün tədbirlər kənd sakinlərinin rahatlığına xidmət edəcəkdir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Brüssel Sülh Gündəliyi Azərbaycanın haqlı mövqeyinə uyğun həll variantının tezliklə gerçəkləşməsini hədəfləyir

Üç saat davam edən danışıqların ardından Avropa İttifaqı Şurasının Prezidenti mətbuata maraqlı açıqlamalarla çıxış etdi, müzakirələrin səmimi, dürüst və məzmunlu olduğunu diqqətə çatdırdı. Detallara toxunmadan öncə onu xüsusi vurğulamaq yerinə düşər ki, Brüssel Sülh Gündəliyinin ölkəmizin haqlı mövqeyinə uyğun hazırlanmasını, görüşdə Qərbi Azərbaycan icması və onların qayıdışı məsələsinin gündəmə gətirilməsini 2020-ci ildən bəri simasında məyusluq kök salan erməni rəhbəri üzərində qalib Azərbaycan Liderinin növbəti diplomatik qələbəsi kimi xarakterizə etmək olar...

Suverenlik, ərazi bütövlüyü, kommunikasiya, humanitar yardımlar, hüquqlar, təhlükəsizlik, əsirlərin, itkin düşənlərin taleyi və digər məsələlərin masaya yatırıldığı Brüssel görüşünün yekunlarına dair açıqlamadan aydın olur ki, tərəflər may görüşündən sonra bir daha Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını qəti şəkildə təsdiqləyiblər. Sərhədlərin delimitasiyası məsələsində isə ötən görüşdəki kimi, yenə 1991-ci il Alma-Ata Bəyannaməsi əsas götürülüb ki, bu, sülh sazişinin Azərbaycanın lehinə imzalanması yolunda növbəti uğurlu addım kimi dəyərləndirilir. Halbuki 1993-cü ildə Ermənistan Azərbaycanla bərabər həmin bəyannamənin dövlətlərin qarşılıqlı şəkildə bir-birlərinin ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını tanıması müddəalarını rəsmi formada üzərinə götürsə də, heç vaxt ona praktik şəkildə əməl etməyib. Əksinə, 44 günlük Vətən müharibəsindən sonra dəfələrlə 30 ildir, münaqişənin həllində vasitəçi kimi heç bir mühüm rol oynamayan ATƏT-in Minsk qrupunu yenidən danışıqlar masasına çəkməyə, eləcə də tanınmayan, qondarma 1975-ci il xəritələrini gündəmə gətirməyə çalışıb. Məhz, bu mənada, Brüssel Sülh Gündəliyi sayəsində kifayət qədər müsbət addımların atıldığını söyləmək olar. Şarl Mişel mətbuata açıqlamasında hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladığını, bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edildiyini, görüş zamanı liderlərin komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəldiklərini də vurğuladı. Xatırladaq ki, sayca dördüncü dəfə keçirilən həmin iclasda tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikasının rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq delimitasiya məsələlərinin müzakirəsini davam edib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər. Həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılaşıblar.

Brüssel görüşünün müzakirə predmetləri sırasında yer alan, təkcə Azərbaycanın deyil, əksər region ölkələrinin, böyük güclərin də xüsusi marağında olan məsələ isə, heç şübhəsiz, kommunikasiyaların yaradılması, Zəngəzur dəhlizinin açılması məsələsidir. Belə ki, tərəflərin son iki ayda regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olduğunu diqqətə çatdıran Avropa İttifaqı Şurasının rəhbəri suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdiklərini diqqətə çatdırıb. Səsləndirilən "Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır" fikirləri artıq Avropanın da erməni nazı ilə oynamaqdan səbir kasasının dolub-daşdığını, problemin həllinin bir addımlıqda olduğunu deməyə əsas verir.

Mətbuata açıqlamadan bəlli olur ki, görüşdə Azərbaycanın humanist siyasəti, xüsusilə də Ağdamdan humanitar yardımların təmin etmək istəyi təqdir edilib, Qarabağda yaşayan erməniəsilli sakinlərin Azərbaycan tərkibində Konstitusiyamıza uyğun şəkildə yaşamasının təmin olunması müzakirəsi dəstəklənib. Beynəlxalq təşkilatın rəhbərinin bu xüsusda "Dağlıq Qarabağ Muxtar Vilayəti" ifadəsinin qarşısında "keçmiş" sözünü işlətməsi və məsələyə heç bir əlavə şərh verməməsi ölkə Prezidenti cənab İlham Əliyevin siyasi qətiyyətinin növbəti parlaq göstəricisidir: "Azərbaycanın Qarabağ regionunda yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz onların həyatını necə qaydaya salacağımızı heç bir beynəlxalq mərkəzlə müzakirə etməyəcəyik". Görüşdə ictimaiyyətimizi ən çox maraqlandıran məsələlərdən sayılan ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunmasının, itkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsinin, minatəmizləmə üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyi də müzakirə olunub. Bu məqamda təəssüf hissi ilə qeyd etməliyik ki, müxtəlif beynəlxalq bəyanatlara, diplomatik çağırışlara baxmayaraq, bu günədək Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində əsir götürülən minlərlə azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib, eləcə də Vətən müharibəsindən sonra ehtiyatsızlıqdan sərhədi keçən soydaşlarımızı amansız işgəncələrə məruz qoyub, barələrində saxta ittihamlarla həbs qətimkan tədbiri çıxarıb. Azərbaycan Xarici İşlər Nazirliyinin cari il aprelin 18-də yaydığı məlumata görə, İkinci Qarabağ müharibəsindən sonra 291 nəfər mina qurbanına çevrilib...

İyulun 15-də Belçikanın paytaxtında keçirilən, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən görüşün ümumi nəticələri belə qənaətə gəlməyə əsas yaradır ki, keçmişdəki digər danışıq formatlarından fərqli olaraq Brüssel Sülh Gündəliyi məsələnin mümkün həll variantının yubatmadan, tez bir zamanda gerçəkləşməsini hədəfləyir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin mətbuata açıqlaması ilə yanaşı, ölkə başçısı cənab İlham Əliyevin 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər də bunu bir daha təsdiqləyir: ***"...Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük..."***

✍ **Nail ƏSGƏROV**

---

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2023-cü ilin I yarım ili ərzində ailə, qadın və uşaq hüquqlarının qorunması diqqətdə saxlanılıb, kollegiya iclası, konfrans, təlim, festival, seminar, tədbir, görüş, monitorinqlər, sərgi-satış keçirilib, beynəlxalq günlər qeyd olunub. Statistik təhlillərin aparılması məqsədilə ailə, qadın və uşaqlarla bağlı aid orqanlara müraciət olunub, alınan məlumatlar bazaya əlavə edilib. Hesabat dövrü ərzində komitənin 2 dəfə kollegiya iclası keçirilib.*

## Ailə, qadın və uşaq hüquqlarının qorunması I yarım ildə də diqqətdə saxlanılıb

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hesabat dövrü ərzində Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyləri münasibətilə tədbirlər keçirilib.

Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş, 603 qadının iştirakı ilə Heydər Əliyev Sarayında keçirilən "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusundakı tədbirdə 2022-ci il ərzində muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən, müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 35 qadına diplom təqdim olunub və təşkil edilən istedadlı qadınların rəsm və əl işlərindən, eləcə də qadınlar tərəfindən nəşr olunan kitablardan və ailə təsərrüfatı ilə məşğul olan qadınların istehsal etdiyi məhsullardan ibarət sərgi-satışda 9 istedadlı qadının 240 manat dəyərində 25 əl işi, 4 ailə təsərrüfatçısı olan qadının 212 manat dəyərində istehsal etdikləri məhsulları satılıb. Batabat yaylağında keçirilən "Xalq yaradıcılığı" festivalında istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışda 32 müəllifin 986 əl işi sərgilənib və 4 istedadlı qadının 835 manat dəyərində 66 əl işi satılıb. Ümumilikdə, hesabat dövrü ərzində özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə 48 istedadlı qadının 6514 manat dəyərində 632 əl işi və istehsal etdikləri məhsullarının satışı həyata keçirilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Gənclər Fondu və Rəssamlar Birliyi ilə birlikdə muxtar respublika üzrə uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar, orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri, gənclər və digər şəxslər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda X muxtar respublika yazı və rəsm müsabiqəsi elan olunub. Müsabiqəyə 150 şəxsin 163 işi (64 inşa, 81 rəsm, 18 dekorativ-tətbiqi sənət) təqdim olunub, müxtəlif nominasiyalar üzrə 23 nəfər müsabiqənin qalibi olub. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və 15 may – Beynəlxalq Ailə Gününün 30 illiyi münasibətilə "Azərbaycan ailə siyasətinin təminatçısı Ulu Öndər Heydər Əliyev" mövzusunda tədbir, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Heydər Əliyev Sarayında "İstedadlı uşaqlar-2023" adlı festival keçirilib. Festival çərçivəsində 2022-2023-cü tədris ilində Naxçıvan şəhəri üzrə təhsil, incəsənət, idman sahələri üzrə fərqlənən 15 şagirdə komitə tərəfindən fəxri fərman, hədiyyə və Naxçıvan şəhərindən olan 6 şəhid uşağına hədiyyə təqdim olunub.




Həmçinin komitə əməkdaşları Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar müxtəlif təşkilatlar tərəfindən keçirilən tədbirlərdə iştirak və çıxışlar ediblər.

Akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi münasibətilə "Azərbaycan qadını, anası, həkimi – akademik Zərifə xanım Əliyeva" mövzusunda ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, gənclər və digər şəxslər arasında esse müsabiqəsi elan olunub. Müsabiqəyə 113 esse təqdim olunub, müxtəlif nominasiyalar üzrə 12 nəfər müsabiqənin qalibi olub. Naxçıvan Dövlət Milli Dram Teatrında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar "Elmdə qadınlar" adlı konfrans keçirilib.

Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova Sədərək rayonunun Dəmirçi kənd və Culfa rayonunun Yaycı kənd sakinləri ilə görüş keçirib. Vətəndaşların qəbulu zamanı 36 nəfər işlə təminat, ünvanlı dövlət sosial yardımı təyin olunması, pensiya məsələsi, sərmayə kapitalı almasına köməklik və digər məsələlərlə bağlı müraciət edib. Müraciətlərə qanunamüvafiq baxılıb, hüquqi yardım göstərilib və müraciətlərə baxılıb, köməklik göstərilməsi üçün aidiyyəti üzrə təşkilatlara məktub göndərilib.

Həmçinin muxtar respublikada yaşayan gözdən əlil olan 20 qadınla, 1 çoxuşaqlı ana ilə və Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanova ilə görüşlər keçirilib, qadınlara hədiyyə və gül buketi, əlavə olaraq çoxuşaqlı ailəyə isə ərzaq payı təqdim olunub. Uzunömürlü, nümunəvi – evliliklərinin ildönümləri olan ailələrdə tədbirlər keçirilib. Aztəminatlı ailələrin sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılıb, aid təşkilatlarla birlikdə Şərur rayonunun İbadulla və Tumaslı kəndlərində 2 xüsusi qayğıya ehtiyacı olan ailəyə baş çəkilib, onların problemləri ilə maraqlanılıb, ailələrə ehtiyaclarına uyğun köməklik göstərilib. Ümumilikdə, hesabat dövrü ərzində 5 ailəyə müvafiq köməklik göstərilib. Həmçinin komitə və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşlarının iştirakı ilə Naxçıvan Respublika Xəstəxanasında muxtar respublikada yaşayan hemofiliyalı və talassemiyalı uşaqlar üçün qanvermə aksiyası keçirilib, aksiyada 6 litr qan ehtiyatı toplanılıb. Ailələrə Dəstək Mərkəzinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin uşaqları da olmaqla, 16 sağlamlıq imkanları məhdud uşağa komitə tərəfindən hədiyyə verilib.

Hesabat dövrü ərzində ailə, qadın və uşaq məsələləri ilə bağlı təbliğat işi də davam etdirilib. Bununla əlaqədar tədbirlər keçirilib, iştirakçılara komitə tərəfindən hazırlanan 394 ədəd maarifləndirici broşür paylanılıb. "Erkən nikah ailə institutunun məhvidir" və "Erkən nikah və onun fəsadları" mövzularında maarifləndirici tədbirlər keçirilib. Həmin maarifləndirici tədbirlərdə iştirak edən 377 qadın arasında 5 müddəadan ibarət sorğu təşkil olunub.




Ümumilikdə, hesabat dövrü ərzində keçirilən maarifləndirici tədbirlərdən 37 ailə və 1860 nəfər yararlanıb, 1653 təbliğat materialı, o cümlədən broşürlər paylanılıb.

Komitə tərəfindən sərmayə kapitalı verilmiş 22 qadının yaşadığı ünvanda və təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı 22 monitorinq keçirilib. Bir sıra rayon mərkəzlərində və kəndlərdə yaşayan aztəminatlı ailənin üzvü olan gənc qızlar və qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı 5 təlim keçirilib. Təlimlərdən 10 sağlamlıq imkanları məhdud, 43 aztəminatlı ailədən olan qadın və 73 yuxarı sinif şagirdi olmaqla, 126 nəfər yararlanıb.

Gender bərabərliyi siyasətini səmərəli şəkildə həyata keçirmək üçün muxtar respublikanın nazirlik, komitə, agentlik, xidmət və digər dövlət müəssisə və təşkilatlarında gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi məqsədilə tədbirlər görülübdür. Belə ki, qeyd olunan təşkilatlarda gender məsələləri üzrə məsul şəxslər təyin olunub.

Hesabat dövrü ərzində 11 uşaq müəssisəsində, 1 yetkinlik yaşına çatmayan uşağın evində, sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı Naxçıvan şəhərində yaşayan 21 sağlamlıq imkanları məhdud uşağın evində monitorinqlər keçirilib, 4 uşaq məktəbəqədər müəssisəyə cəlb edilibdir. Ümumilikdə, hesabat dövrü ərzində uşaq hüquqlarının qorunması ilə bağlı 54 monitorinq keçirilib.

Müxtəlif kateqoriyalardan olan 20 uşağın "Heydər Əliyev irsinin təbliğində maarifləndirmə işi" çərçivəsində muzeylərə ekskursiyaları təşkil olunub. Uşaqların asudə vaxtlarının və yay tətillərinin səmərəli təşkili, intellekt və bacarıqlarının inkişafı, həmçinin cəmiyyətin ictimai həyatında fəal iştirakı, onların istirahət və əyləncəsinin təşkili istiqamətində tədbirlərin davamı kimi şəhid, qazi övladlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan, sağlamlıq imkanları məhdud, o cümlədən aztəminatlı ailələrdən olan 41 uşağın Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil olunub. Həmçinin müvafiq təşkilatlarla birgə "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun Uzunoba bazasında qazi, aztəminatlı ailələrdən olan 10-12 yaş arası, ümumilikdə, 40 uşaq üçün Futbol düşərgəsi təşkil edilib. Düşərgənin sonunda uşaqlar sertifikatla təltif olunublar.

Komitə əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədi ilə 2 əməkdaş beynəlxalq təlimlərdə iştirak edib. Komitənin 1 əməkdaşı Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

*Ümumilikdə, hesabat dövrü ərzində 2 kollegiya, 2 konfrans, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın 2 iclası, 3 festival, 6 təlim, 4 seminar, 119 tədbir, 1 ekskursiya, 4 görüş, 2 müsabiqə, 76 monitorinq, 4 sərgi-satış keçirilib.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə iyun ayının 5-də “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” qəbul olunub. İxracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, istehsal olunmuş sənaye məhsullarının keyfiyyətinin yüksələcəyi, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunan Dövlət Proqramında sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun və Şərur Sənaye Məhəlləsinin fəaliyyət istiqamətlərinin təmin edilməsi də nəzərdə tutulub. İnnovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə kiçik və orta sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əməkqabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, həmçinin məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından sənaye məhəllələrinin yaradılması labüddür.*

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında Şərur Sənaye Məhəlləsinin özünəməxsus rolu olacaq

Azərbaycanda son 20 ildə sahibkarlığın inkişafı istiqamətində dövlət səviyyəsində hüquqi, siyasi və iqtisadi tədbirlərin görülməsi sahibkarlığın fəaliyyəti üçün həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir. Azərbaycan Respublikası Prezidentinin apardığı regional inkişaf strategiyasında sənaye quruculuğu prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bölgələrdə formalaşan xammal potensialı və əmək ehtiyatları nəzərə alınmaqla yaradılan sənaye müəssisələri, texnoparklar və aqroparklar ən müasir standartlar səviyyəsində qurulur. Bu müəssisələrin sayı artdıqca ixracyönümlü “Made in Azerbaijan” brendi ilə dünyaya çıxan məhsula tələbat da artır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da mövcud olan iri müəssisələrin, istehsal məhsullarının həm ölkədaxili satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndirilir.

Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilib. Belə ki, 2015-ci ildə Neftçala, 2016-cı ildə Masallı, 2017-ci ildə isə Hacıqabul və Sabirabad Sənaye məhəllələri yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması istiqamətində 4,8 hektar ərazidə Şərur Sənaye Məhəlləsi yaradılmışdır. Həmin Fərmana əsasən ölkəmizin digər regionlarında yaradılan sənaye məhəllələrindən fərqli olaraq Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi, idarə olunması və inkişafı ilə bağlı tədbirləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi idarəedici təşkilat həyata keçirir.





Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Şərur Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsinin təmin etmək məqsədilə zəruri tədbirlər görür. Verilmiş normativ-hüquqi aktların və müvafiq tapşırıqların səmərəli operativ icrası məqsədilə bir sıra vəzifə və funksiyaların idarəedici təşkilat qismində Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin səmərəli təşkil olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 yanvar tarixli Qərarı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Şərur Sənaye Mərkəzi publik hüquqi şəxs yaradılmışdır. Hazırda sənaye məhəlləsində tikinti işləri aparılır. Burada iqtisadi əsaslandırılmış dörd layihənin yerli sahibkarlara təqdimatı keçirilmiş, digər layihələr üzrə İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsi tərəfindən araşdırmalar aparılır. Ölkə və MDB təcrübəsinə baxılırsa, adətən, sənaye məhəllələrinin SSRİ dövrünə aid hazırda fəaliyyət göstərməyən zavod və fabriklərin ərazisində yaradıldığı məlum olur. Şərur Sənaye Məhəlləsi də Şərur rayonunda fəaliyyəti dayanmış konserv zavodunun ərazisində qurulur.

Məhəllənin ərazisində üç mərtəbədən, 24 istehsal sexi, bir konfrans zalı, altı inzibati və beş texniki otaqdan və altı sanitar qovşaqdan ibarət inzibati bina və 3 istehsal korpusu inşa olunmuşdur.

İnzibati binada ilkin olaraq bir şirniyyat və bir tekstil malları istehsalı sahələrinin fəaliyyəti nəzərdə tutulur. Gələcəkdə digər kiçik istehsal sahələrinin fəaliyyətə başlaması istiqamətində işlər aparılır.

On iki blokdan ibarət birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları və iki mebel müəssisəsi fəaliyyət göstərir. Birinci korpusun ikinci hissəsində yerləşən altı istehsal bloku üçün müxtəlif təyinatlı, o cümlədən qəlyan tütünü, polietilen torbalar, dəmir darvaza qapıları istehsalının həyata keçirilməsi üçün müraciətlər daxil olmuşdur. Qeyd olunan blokların qida sənayesi üçün nəzərdə tutulması ilə əlaqədar olaraq qəlyan tütünü istehsalı üçün iki blok ayrılmış və sahibkar tərəfindən avadanlıqların alınması istiqamətində Türkiyə mənşəli şirkətlə iş aparılır. Digər istehsal bloklarında prioritet hesab edilən qida təyinatlı kiçik istehsal sahələrinin qurulması istiqamətində də iş aparılır. İki hissədən ibarət ikinci korpusda kağız kisə və karton tara müəssisəsinin qurulması başa çatdırılmış, günəbaxan tumlarının paketlənməsi sahəsinin qurulması istiqamətində işlər davam etdirilir. Üçüncü korpusda isə bitki yağı istehsalı müəssisələrinin qurulması istiqamətində işlər davam etdirilir. Əlavə olaraq yağ istehsalı sahəsinin ekstraksiya bölməsi üçün bir ədəd yardımçı bina, xammalın saxlanması üçün iki ədəd min tonluq metal konstruksiyalı çən və bir ədəd ağırçəkili tərəzi quraşdırılması nəzərdə tutulur.

Hazırda Azərbaycanda sənaye məhəllələrində fəaliyyət göstərən rezidentlərin sayı 25-ə çatmışdır ki, bunun da nəticəsində faktiki olaraq 10 min 200-ə yaxın iş yeri yaradılmışdır. Bundan başqa, mövcud layihələr üzrə əlavə olaraq 582,3 milyon manatdan çox investisiyanın qoyulması və 4800-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

*Beləliklə, şahid oluruq ki, modern sənayeləşmə Azərbaycanın iqtisadi qüdrətinin artmasına böyük təkan verir. Heydər Əliyev siyasi kursunun davamçısı, müdrik lider, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev illər əvvəl deyirdi:* ***“Azərbaycanın qeyri-neft sənayesinin inkişafı üçün tikilən bütün sənaye park və məhəllələri, zavod və fabriklər bir müddətdən sonra ölkəyə böyük həcmdə valyuta gətirəcək”.*** *Bu gün sənaye park və məhəllələrimizdə istehsal olunan məhsulların dünyanın müxtəlif ölkələrinə Azərbaycan brendi ilə ixrac olunması illər əvvəl uzaqgörənliklə vurğulanan bu fikrin əyani sübutudur.*

**Fariz ƏHMƏDOV**

*Muxtar respublikamızda ən geniş yayılan təsərrüfat sahələrindən biri üzümçülükdür. Bu sahənin inkişafı, məhsuldar sortların becərilməsi və eyni zamanda artırılması üçün mühüm tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamla təsdiq etdiyi muxtar respublikamızın sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının bitkiçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, arıçılıq sahələrinin inkişaf etdirilməsi, üzümçülük ənənələri nəzərə alınmaqla üzümçülük və şərabçılıq istiqamətində tədbirlər həyata keçirilməsi, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə bu sahələrdə məhsul istehsalının artımına nail olunması nəzərdə tutulmuşdur.*



## Üzümçülük sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi aqrar siyasətin prioritetlərindəndir

Muxtar respublikada bu istiqamətdə görülən işlər, aparılan tədqiqatlar haqqında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Bioresurslar İnstitutunun meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru ***Varis Quliyev***in sözlərinə görə, yeni Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişafı üzrə intensiv texnologiya ilə becərilən yeni meyvə, tərəvəz və üzüm sahələrinin yaradılması, unudulmuş aborigen sortların bərpası, yüksəkkeyfiyyətli və məhsuldar yerli sortlardan ibarət yeni bağların salınması, əkin sahələrindən intensiv texnologiyaların tətbiqi ilə vahid sahədən məhsuldarlığın artırılmasına nail olunması planlaşdırılıb. Hazırda əkin sahələrində tələb olunan gübrələr, mövsümlərarası dövrlərdə əhalinin meyvə və üzüm məhsulları ilə fasiləsiz təmin edilməsi üçün anbar şəbəkələrinin və saxlama soyuducu kameraların yaradılması, daxili bazarın qorunması, meyvə-tərəvəz məhsullarının idxalının azaldılması və ixracının təşkili, yeni müasir istehsal müəssisələrinin yaradılması kimi mühüm tədbirlər icra edilməkdədir:

Müsahibim bu gün aqrar sektorda ayrı-ayrı sahələrin inkişafı üçün əlverişli şərait yaradılmasından danışaraq deyir ki, muxtar respublikada inkişafın mühüm faktorlarından biri kimi üzümçülük sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və rəqabətqabiliyyətliliyin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər iqtisadiyyatın sürətli inkişafını təmin edir. 2020-ci ildə üzüm bağlarından 17 min tona yaxın üzüm yığılması, üzümçülüyün inkişafının təmin edilməsi üçün üzüm genofondunun tədqiqi olduqca əhəmiyyətlidir. Üzümçülüyün yenidən inkişafına gələcəkdə də dövlətin diqqətinin artacağını nəzərə alaraq Bioresurslar İnstitutu tərəfindən muxtar respublikada mövcud üzüm genofondunun toplanılaraq qorunması, həmçinin kompleks şəkildə botaniki, genetik və ampeloqrafik tədqiqi aparılmaqla, ərazidə yayılan 120-dən çox aborigen, 23 introduksiya olunmuş, 17 yeni klon variasiyalarından və 30-dan çox seleksiya üsulları ilə alınmış formalardan ibarət “Üzüm genofondu” kolleksiya bağı salınmışdır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yetişmə müddətlərinə görə 7 qrupda yerləşdirilən yüksəkkeyfiyyətli üzüm sortlarının plantasiyalarının salınması geniş ərazilərdə becərilən bağlardan məhsulun konveyer üsulu ilə toplanmasını, daxili bazarlara ilin 4-5 ayı ərzində təzə süfrə üzümü çıxarılmasını, emal müəssisələrini isə 3-4 ay müddətində üzüm məhsulları ilə təchiz olunmasını, hətta belə məhsulların xaricə ixracatını təmin etmiş olar. Üzümçülüyün yenidən inkişaf etdirilməsi digər tərəfdən kənd əhalisinin məşğulluğunun artırılmasına, əhalinin işlə təmin olunmasına da kömək edəcəkdir. Elmi-tədqiqat işləri nəticəsində çoxlu sayda perspektivli, bioekoloji amillərə dözümlü yeni üzüm formaları yaradılmışdır. Onlardan 8 üzüm sortuna patent və müəllliflik şəhadətnaməsi alınmışdır. Naxçıvanın ənənəvi süfrə və texniki aborigen üzüm sortlarının Azərbaycanın və xarici ölkələrin, o cümlədən 24 sortun ABŞ-ın Kaliforniya ştatında yayılmasına nail olunub.

Müsahibimin sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin, tərəvəzçiliyin və üzümçülüyün inkişaf strategiyasına uyğun olaraq praktiki tədbirlərin yerinə yetirilməsinin daha məqsədəuyğun olacağını nəzərə alaraq bir neçə təklif irəli sürülmüşdür.

İlk növbədə, meyvəçilik, tərəvəzçilik və üzümçülük üzrə fermer təsərrüfatlarının müasir elmi əsaslarla təşkili, muxtar respublika aqronomların peşə hazırlıqlarının mütəmadi olaraq yenilənməsi üçün Azərbaycan Dövlət Aqrar Universitetinin, müvafiq təhsil müəssisələrinin aqronomluq kafedralarında ixtisasartırma kurslarına cəlb olunmasının təşkili, meyvəçilik və üzümçülük üzrə ixtisaslaşdırılmış tinglik təsərrüfatlarının yaradılması, tətbiqyönümlü sortların əkin dövriyyəsinə daxil edilməsi təkliflər sırasındadır. Digər bir tərəfdən Bioresurslar İnstitutu və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi “Araz” Elm-İstehsalat Birliyində müvafiq laboratoriyalarda tərəvəzçilik üzrə ayrı-ayrı sortların genofondunun toplanılması, qorunması, toxum tədarükü və əkin dövriyyəsinə daxil edilməsi təşkil edərək dağlıq, dağətəyi və Arazboyu düzənlik ərazilərdə landşafta uyğun iqtisadi əhəmiyyətli və tətbiqyönümlü meyvə, tərəvəz, üzüm sortlarını müəyyənləşdirərək yeni boş torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, meyvəçiliyin və tərəvəzçiliyin intensiv əsaslarla inkişafı üçün sənaye əhəmiyyətli yeni sortların muxtar respublika ərazisinə introduksiya olunması nəzərdə tutulmalıdır.



Müsahibimiz deyir ki, meyvəçilik, tərəvəzçilik, üzümçülük üzrə ailə və fermer təsərrüfatlarının yaradılmasının genişləndirilməsi, inkişaf etdirilməsi, satış bazarlarına daha çox təzə yerli məhsulların çıxarılmasında dövlət dəstəyinin artırılması, əhalinin yerli meyvə, tərəvəz və üzüm məhsulları ilə dolğun təminatının yaxşılaşdırılaraq, meyvəçilik üzrə innovativ texnologiyaya əsaslanan fabrik və emal müəssisələrinin yaradılması, müxtəlif çeşidli konservləşdirilmiş məhsulların istehsalının artırılması və ixrac məhsullarının genişləndirilməsi də təkliflər arasındadır.

Varis Quliyev onu da diqqətə çatdırdı ki, meyvə, tərəvəz və üzüm məhsullarından təzə halda bütün mövsümlərdə istifadə üçün saxlama kameralarından, anbarlardan məqsədyönlü istifadə edilməsi, həmin anbarlardan istifadənin əlçatan olması imkanlarının yaradılması, bu işdə yerli sortların məhsullarından daha çox istifadə mövcud problemlər sırasındadır.

Mövzu ilə əlaqədar olaraq 1 hektara yaxın üzüm sahəsi olan Culfa rayonunun Saltaq kənd sakini ***Ruslan Kəngərli*** isə bildirdi ki, dədə-baba sənəti olan üzümçülük təsərrüfatı ilə artıq 25 ildir, məşğul olur. Hazırda təsərrüfatında sarı və qırmızı kişmişi sortunun daxili bazarda pərakəndə və topdan satışını həyata keçirir. Əhali tərəfindən yerli kişmişi sortuna daha çox tələbat var. Digər növ üzüm sortları yetişdirməyi planlayan, amma su çatışmazlığından yaranan bəzi problemlər bunun qarşısını alır.

*Bu məlumatlara əsaslanaraq əminliklə demək olar ki, istehsal olunmuş ekoloji təmiz meyvə və üzüm məhsullarının itkisiz toplanılması, qurudulmuş məhsulun istehsalının genişləndirilməsi və tədarükünün təşkili diqqətdə saxlanılaraq yaxın gələcəkdə mühüm öhdəliklərin icrasına nail olunacaq.*

**Bülbül QULİYEVA**

*Yaxın günlərdə yolum Naxçıvan şəhərindəki Yusif Məmmədəliyev küçəsindən düşmüşdü, təsadüfən bir reklam pannosu diqqətimi çəkdi. "Naxçıvanda bir ilk: saç və qaş əkimi aparılır" yazılan lövhədə qeyd edilən ünvana getdim. Öyrəndim ki, burada yeni bir tibb mərkəzi fəaliyyətə başlayıb. "Naxçıvan" Özəl Tibb Mərkəzinin direktoru* ***Ayxan Mehdiyevlə*** *həmsöhbət olduğumuzda bildirdi ki, mərkəz uzun illər fəaliyyət göstərən "Şəfa" xəstəxanasının binasında yenidənqurma işləri aparıldıqdan sonra fəaliyyətə başlayıb. Komanda şəklində fəaliyyət göstərən tibb işçiləri fəaliyyətə başlamalarından az vaxt keçməsinə baxmayaraq, yaxşı nəticələr də əldə ediblər. Mərkəzdə hər bir şəraitə malik olan, müasir aparatlarla təchiz edilmiş laboratoriya da fəaliyyət göstərir. Burada kiçikhəcmli plastik əməliyyatlar da aparılır. Direktor xüsusilə vurğulayır ki, Naxçıvan Muxtar Respublikasında bir ilki həyata keçirdikləri üçün sevinclidirlər.*

*Səhiyyə*

## Naxçıvanda ilklərin yaşandığı səhiyyə ocağı: "Naxçıvan" Özəl Tibb Mərkəzi



Mərkəzin baş həkimi ***Bəhram Mehdiyev*** gənc olmasına baxmayaraq, öz üzərində daim işləyir, tibbi yenilikləri öyrənir. O, Azərbaycan Tibb Universitetini bitirib. Həkim-terapevtdir. Qardaş Türkiyədə saç, qaş əkimi üzrə xüsusi kurs keçib. Həkim deyir ki, hər birimiz gözəl saçların sahibi olmaq istəyirik, amma çoxumuz saç tökülmə problemi ilə üzləşirik. Bu problemə səbəb olan saç follikullarının zədələnməsi müxtəlif səbəblərdən baş verə bilər. Mərkəzdə saç tökülmələrinin qarşısının alınması üçün müalicələr də aparılır. Fue üsulu ilə saç, qələm üsulu ilə qaş əkimi aparılır. Müsahibim bildirdi ki, insanların müxtəlif səbəblərdən saçları, qaşları tökülür. Bəzən yaş, bəzən irsi, bəzən isə müəyyən xəstəliklər səbəbindən belə bir mənzərə ilə üzləşən insanlar, ən çox da xanımlar, bunu böyük bir problem kimi qarşılayırlar. Amma müasir dövrümüzdə buna da əlac tapılıb. Saç əkimi çox sadə və asan üsulla aparılır. Xəstələrimiz bir neçə ay istədikləri görkəmə qovuşur.

Hər cür müasir tibbi avadanlıqla təchiz edilən laboratoriyanın həkimi ***Seyran Hüseyinli*** İstanbul şəhərində ixtisası üzrə uzmanlıq təhsili alır. Gülər üzü, səmimiliyi ilə insanın ürəyinə sakitlik gətirən gənc xanım qeyd edir ki, xəstələrin qan analizləri burada, zərurət yarandıqda isə Bakı şəhərində və ya Türkiyə Respublikasındakı xəstəxanalara göndərilməklə aparılır. Düzgün analizin xəstəliklərin müalicəsində əsas rol oynadığını deyən həkim bildirdi ki, çalışırlar ki, qan analizlərinin nəticələri dəqiq aparılsın. Bunun üçün mərkəzdə hər bir şərait var.



Burada olarkən Bəhram və Ayxanın anası, laborant-həkim ***Bəyim xanım***la da tanış oluruq. O, qədim müalicə üsulu olan zəli qoyma və hicama ilə xəstələri müalicə edir. Bəyim xanım bu üsul barədə məlumat verdi. Bildirdi ki, zəli vasitəsilə müxtəlif xəstəliklərin müalicə edilməsi təbabətdə çox qədim zamanlardan mövcuddur. Onu "hirudoterapiya" adlandırırlar. Əslində, zəli ilə müalicə təkcə xəstələr üçün deyil, sağlam olanlar üçün də çox faydalıdır, çünki daxili orqanlar yaxşı qidalanır və damarlarda elastiklik yaranır. Zəli qoyulması altsheymer, skleroz kimi xəstəliklərin, həmçinin beyin damarlarının spazmının qarşısını alır, beyin qan dövranını yaxşılaşdırır, hafizəni və diqqəti itiləşdirir, xüsusən boyun osteoxondrozu, ümumiyyətlə, onurğa sütununun bütün hissələrinin osteoxondrozunda onun qədər yaxşı təsir edən ikinci vasitə yoxdur. Zobun istər düyünlü, istərsə də diffuz, yəni yayılmış formalarda zəli müalicəsi çox yaxşı təsir göstərir, düyün ətraflarına qoyulmuş zəlilər az bir zamanda şişin kiçilməsinə səbəb olur. Həmin müalicə formasından istifadə edənlərin qanı normadan artıq laxtalanmır, tromblaşmır və ürəyin işemik xəstəlikləri – miokard infarktı, stenokardiya və ateroskleroz baş vermir. Zəlinin ağız suyundakı fermentlər antioksidantlardır, buna görə də şiş xəstəliyinin qarşısını almaq və əmələ gələn şişləri müalicə etmək üçün ondan mütləq istifadə olunmalıdır. Zəli ilə müalicə olunanlar infarkt və insult xəstəliyinə tutulmurlar, – deyən Bəyim xanım qeyd edir ki, bəzi xəstələr zəlinin faydalarını öyrənəndən sonra 3-5 ədəd zəli qoydurur və nəticə əldə etmirlər. Bu, qətiyyən düzgün deyil, çünki zəlini mütəxəssis təyin etməli və onun qoyulması sistemli şəkildə aparılmalıdır.

"Naxçıvan" Özəl Tibb Mərkəzində ikən müalicə üçün buraya üz tutan bir neçə sakinlə də həmsöhbət olduq. Şərur rayon sakini ***Mələk Hüseynova*** iki ilə yaxındır ki, onkoloji xəstəlikdən əziyyət çəkir. O dedi ki, çox vaxt onkomarkerləri yoxlatmaq üçün ya Bakı şəhərinə, ya da ki qardaş Türkiyəyə getməli olurdu. Amma bir neçə aydır ki, Naxçıvan şəhərində yerləşən bu xəstəxanaya qanın analizi üçün müraciət edir: – Sağ olsun Seyran qızım, lazım olanda qanı Bakı şəhərinə də göndərir. Qiymətlər də münasibdir. Çoxumuz yaxşı bilirik ki, hər ay Naxçıvandan başqa yerlərə üz tutmaq həm insanı yorur, həm də maddi cəhətdən çətindir. Sağ olsun dövlətimiz, şərait yaradıb gənclərimiz həvəslə işləyir.



Naxçıvan şəhər sakini ***Şəbnəm xanım*** ağır bir xəstəlikdən əziyyət çəkib. Keçirdiyi ağır xəstəlik saçlarının və qaşlarının tökülməsinə səbəb olub. İlk vaxtlar çox narahatlıq keçirib, saç əkimi mütəxəssisi olan Bəhram həkimlə tanış olandan və müayinə edildikdən sonra qərara gəlib ki, müalicəsini bu gənc həkimə həvalə etsin. Və çox gözəl nəticə əldə edib. Aradan bir neçə ay keçəndən sonra əvvəlki görkəminə qovuşub və çox xoşbəxtdir.

Bu gün burada xəstəliyinə çarə axtaran insanları və onlara çarə olmaq istəyən gənc həkimləri görəndə ürəyim fərəh hissi ilə dolubdaşdı. Xəstəxananı həvəslə idarə edən direktor Ayxan Mehdiyev "Naxçıvan" özəl xəstəxanasında ilklərə imza atdıqlarından, Bəhram həkim yenə də təkmilləşdirmə kurslarına gedib işini daha da gözəl görmək istəyindən, Seyran xanım isə laboratoriyanı yeni, daha fərqli analizləri aparmaq üçün lazım olan aparatları gətirmək istədiyindən həvəslə danışır. Onlarla həmsöhbət olduqdan, xəstəxananın təmiz, səliqəli, müasir avadanlıqlarla təchiz edilən otaqlarını gördükdən sonra illər əvvələ qayıdır düşüncələrim: hamının "Köhnə Şəfa "dediyi xəstəxananı xatırlayıram. Köhnə, yararsız bir bina və qaranlıq otaqlarda sovetlərdən qalma avadanlıqlarla doldurulan otaqları, çoxlu pul qarşılığında gördüyümüz natəmiz xidməti xatırlayıram qeyri-ixtiyari. Bu gün isə qarşımızda başqa bir mənzərə var, iki təhsilli, gənc qardaşın səyi ilə ərsəyə gələn gözəl şəraitli xəstəxana.

*Prezident cənab İlham Əliyevin bu yaxınlarda təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda əhalinin daha da keyfiyyətli tibb xidmətlərinə çıxışının yaxşılaşdırılması üçün Naxçıvanda yeni özəl tibb müəssisələrinin də açılması nəzərdə tutulub. Ümid edirik ki, yaradılan şəraitdən istifadə edən digər gənclərimiz də belə nümunəvi tibb müəssisələri yaradacaqlar.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Su təsərrüfatı sahəsində kadrların hazırlanması günün tələbidir

Meliorasiya və su təsərrüfatı sahəsində əhaliyə xidmət göstərmək, torpaqların su təminatını həyata keçirmək, meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil etmək, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirmək qarşıya qoyulan əsas vəzifələrdəndir. Təbii ki, bu vəzifələrin həyata keçirilməsində əsas məsələlərdən biri də bu sahə üzrə peşəkar kadrların hazırlanmasıdır. Muxtar respublikamızda su təsərrüfatı sahəsində bacarıqlı mütəxəssislərin yetişdirilməsi baxımından Naxçıvan Dövlət Universitetinin rolu böyükdür. Biz də ali təhsil müəssisəsinin Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müəllim və tələbələri ilə həmsöhbət olub, kafedranın iş istiqaməti və gələcək perspektivləri haqqında danışdıq.



Meliorasiya və ekologiya mühəndisliyi kafedrasının müəllimi ***Səttar Nəsirov*** Meliorasiya mühəndisliyi ixtisası üzrə kadr hazırlığının aparılması barədə bunları dedi: – Bu gün su obyektlərinin istifadəsi, mühafizəsi və bərpası sahəsində bir çox tədbirlər həyata keçirilir, bu zəruri məsələ Dövlət proqramlarında öz əksini tapır və onların yerinə yetirilməsinə nəzarət edilir. Muxtar respublikamızda ali və orta ixtisas təhsili müəssisələrində təhsil alanların yüksək biliyə və praktiki təcrübəyə yiyələnmələri vacib məsələ kimi diqqətdə saxlanılır. Kadr hazırlığında mühüm rol oynayan ali və orta ixtisas təhsili müəssisələri müvafiq dövlət idarə və təşkilatları arasında əlaqələrin genişlənməsi, tələbələrin müvafiq dövlət orqanlarında təcrübə qazanmaları, onların bacarıqlı mütəxəssis kimi yetişmələri baxımından mühüm vəzifəni həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Naxçıvan Dövlət Universitetinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi ixtisasının tələbələrinin fəal iştirakı ilə mütəmadi olaraq kompleks tədbirlər, elmi-nəzəri seminar və konfranslar, təcrübə məşğələləri həyata keçirir. Tələbələrimizin istehsalat təcrübələri keçmələri üçün də lazımi şərait yaradılıb. Sözsüz ki, keçirilən təcrübələr və real iş şəraiti ilə yaxından tanışlıq, tələbələrin gələcəkdə bir mütəxəssis kimi formalaşmasında, meliorasiya və su təsərrüfatının müxtəlif sahələrində təcrübi biliklərə yiyələnməsində, gənc kadr kimi hazırlanmasında, bir mühəndis kimi yetişməsində mühüm rol oynayacaq.

Həmin kafedranın baş müəllimi ***Leyla İbrahimova*** da tələbələrin istehsalat təcrübələrinin istiqamətlərindən bəhs etdi. Bildirdi ki, hər il olduğu kimi, bu il də Naxçıvan Dövlət Universitetinin tələbələri əvvəlcədən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və universitetin birgə hazırladığı proqram əsasında istehsalat təcrübə məşğələlərinə cəlb olunurlar. Tələbələr universitetdə qazandıqları nəzəri bilikləri istehsalat təcrübəsində praktiki olaraq sınaqdan keçirirlər. Onlar ayrı-ayrı sahələrdə olur, bir sıra hidrotexniki qurğu və sistemlərlə yaxından tanış olaraq su istismar qaydalarını mənimsəyirlər. İndiyədək tələbələrimiz Şahbuz şəhər su təmizləyici və çirkab su təmizləyici qurğular sistemində, Heydər Əliyev və Uzunoba su anbarlarında, Kəngərli rayon 4 nömrəli nasos stansiya və Naxçıvan şəhər kəhrizlərində olmuşlar. Bunun nəticəsi kimi, bir faktı da nəzərinizə çatdırmaq istəyirəm ki, məzun olmuş tələbələrdən cəmiyyətin və yerli idarələrdə çalışanların sayı 25 nəfərə çatmışdır. Gənclər işlə təmin olunmaqda hər hansı çətinliklə üzləşmirlər.



Memarlıq və mühəndislik fakültəsinin Meliorasiya mühəndisliyi ixtisasının IV kurs tələbəsi ***Kamal Allahverdiyev*** öz ixtisasının perspektivlərindən belə bəhs etdi: – Bu gün təkcə muxtar respublikada deyil, bütün dünyada ən aktual, qlobal məsələlərdən biri ekoloji vəziyyət və ətraf mühitin mühafizəsidir. Bu sahədə müəyyən işlər görülsə də, çatışmazlıqlar da özünü göstərir. Ölkəmizdə içməli su təsərrüfatı sahəsinin inkişafı məqsədilə atılan addımlardan biri də bu sahədə ixtisaslı kadr yetişdirmək məsələsidir. Bu ixtisasın öyrənilməsində müəllimlərimizin rolu əvəzsizdir. Müəllimlərimizdən məsləhətlər alır, həmçinin onların mühazirələrini dinləyib, laboratoriyalar və seminarlarında iştirak edirik. Hazırda tikintisi davam edən Texnopark layihəsində də Meliorasiya ixtisasına aid laboratoriyaların qurulması nəzərdə tutulub. Burada biz götürdüyümüz torpaq və su nümunələrinin tərkibini müasir tələblərə cavab verən avadanlıqlarla analiz etməyi öyrənəcəyik. Müəllimlərimiz bizə ixtisasımızın özümüz üçün, dövlətimiz üçün nə qədər vacib olduğunu söyləyirlər. Bizim bu sahədə yaxşı mühəndis olmağımız üçün əllərindən gələni edir, bu sahənin dərinliklərini, görünməyən tərəflərini aşılamağa çalışırlar.

*Apardığımız söhbətlərdən də göründüyü kimi, su təsərrüfatı müasir həyatımızın ayrılmaz hissəsidir. Su ehtiyatlarını qorumaq, onlardan qənaətlə istifadə etmək hər birimizin borcudur. Bu sahədə ixtisaslı kadrların hazırlanması isə müasir dövrün ən aktual məsələlərindəndir.*

✍ **Aysel YUSİFZADƏ**
✍ **Bülbül QULİYEVA**

## Tələbələrin təcrübə prosesi davam edir



Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin bir sıra ali məktəbləri arasında bağlanan əməkdaşlıq müqavilələrinə uyğun olaraq Tibb fakültəsinin tələbələri, 12 nəfər həkim və müəllimi olmaqla, ümumilikdə, 107 nəfərdən ibarət heyəti qardaş ölkədə təcrübə məşğələlərinə başlayıb.

Qeyd edək ki, tələbə və rezidentlər Türkiyənin Ankara, Qazi, İstanbul Yeditəpə, Trabzon Qaradəniz Texnik universitetlərinin klinikalarında təcrübələrə qatılıblar. Təcrübə heyəti Tibb, Stomatologiya, Əczaçılıq, Psixologiya, Müalicə işi, İctimai səhiyyə, Hərbi tibb, Tibbi profilaktika ixtisasları üzrə təcrübələrdə, müxtəlif əməliyyatlarda, analizlərin aparılmasında, xəstə müayinələrində izləyici, aktiv iştirakçı və assistent kimi iştirak edir, seminar və assistentlərin toplantısına qatılırlar. Təcrübələrdə tələbələr təcili tibbi yardım, daxili xəstəliklər, doğum, ümumi, robotik, neyro, ağız və üz-çənə cərrahiyyələri, əczaçılıq laboratoriyası texnologiyaları və bir çox digər sahələri peşəkar mütəxəssislərdən mənimsəyirlər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

### Bildiriş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 21 iyun 2023-cü il tarixli 324-06S nömrəli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 14 iyun 2023-cü il tarixli 322-06S nömrəli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" publik hüquqi şəxsi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 10 iyul 2023-cü il tarixli 187-VI FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti, "Naxçıvan Məhsulları" publik hüquqi şəxsi və "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsi ləğv edilmişdir.

### İtmişdir

Şərur rayonunun Xanlıqlar kəndində yaşamış Salahov Teymur Yusif oğlunun adına verilmiş JN-176A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə", JN-0033 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı və 20 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Əliyev Sabir Eynulla oğluna məxsus JN-745A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğanlı kənd sakini Əliyev Habil Eyvaz oğlunun adına olan JN-116A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 430